**Laçın Vəzir oğlu Abışlı**
**Baki Dövlət Universiteti, "İqtisadiyyat" kafedrası, dosent**
**E-mail: abishli@gmail.com**
**İkram İsmayıl oğlu Cəbrayılov**
**Baki Dövlət Universiteti, "Maliyyə və menecment" kafedrası, dosent**
**E-mail: c.ikram84@gmail.com**
**UOT: 330.34: 330.341; JEL: O1; O11; O40.**

# Müasir dövrdə Azərbaycanın iqtisadi inkişafının aktual məsələləri

***Xülasə***

*Tədqiqatın məqsədi - müasir dövrdə Azərbaycanın iqtisadi inkişafının aktual məsələlərinin araşdırılmasından ibarətdir. Bu məqsədlə Azərbaycanın iqtisadi inkişaf problemləri açıqlanmış və bununla bağlı prioritetlər verilmişdir. Eyni zamanda, qlobal çağırışlar nəzərə alınmaqla, ölkənin iqtisadi inkişafının surətləndirilməsi tədbirlərinin görülməsinin vacibliyi bildirilmişdir. Yaxın perspektivdə Azərbaycanın iqtisadi inkişafının aktual istiqamətləri üzrə mülahizələr yer almışdır. Tədqiqatın metodologiyası baxılan problemlərə dair müxtəlif tədqiqatçıların yanaşmalarından və elmi müddəalarından ibarətdir. Bundan əlavə, iqtisadi metodlar kimi təhlil, sintez və ümumiləşdirmələrdən istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti baxımından qeyd edə bilərik ki, hazırkı şəraitdə Azərbaycanın iqtisadi inkişafının yeni drayverləri ön plana çıxmaqdadır. Bununla əlaqədar olaraq, əldə olunan elmi-iqtisadi və praktiki nəticələrin bu istiqamətlərdə yeni iqtisadi mexanizmlərin hazırlanmasında istifadə olunması perspektivlərini qeyd etmək mümkündür. Tədqiqatın nəticələri Azərbaycanda iqtisadi inkişafın aktual problemlərinin həll edilməsi üçün daha təsirli tədbirlərin görülməsində, eyni zamanda müvafiq fəaliyyət proqramlarının işlənməsində faydalı olması ilə izah oluna bilər. Tədqiqatın orjinallığı və elmi yeniliyi baxımından, bunları ümumiləşdirmək olar ki, baxılan problemlər, xüsusilə Azərbaycanda iqtisadi inkişafın aktual məsələləri qlobal çağırışlar kontekstində baxılmaqdadır. Məqalədə verilən materiallar əsasən orijinallığı ilə diqqət çəkir. Başlıca elmi yenilik isə, yeni çağırışlar və inkişaf drayverləri kontekstində ölkəmizdə iqtisadi inkişafın aktual problemlərinə kompleks elmi-iqtisadi yanaşmanın təmin olunmasıdır. Aktual xarakter daşıyan iqtisadi inkişaf problemləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan, iqtisadi inkişaf, iqtisadi artım, iqtisadi inkişaf modeli, iqtisadi inkişaf problemləri, iqtisadi inkişaf perspektivləri.*

## Giriş

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi, inkişaf modelinin təkmilləşdirilməsi, yeni çağırışlar şəraitində zəruri tədbirlərin görülməsi daha təsirli fəaliyyət mexanizmlərinin işlənməsi olduqca vacib şərtlərdəndir. Son illərdə ölkə iqtisadiyyatının inkişafının intensivləşdirilməsilə əlaqədar olaraq sistemli işlərin görülməsi diqqət çəkir və əsas etibarilə perspektivli iqtisadiyyat sahələrinin imkanlarından səmərəli istifadə olunması, qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi və həm də resurslara zəngin olan iqtisadiyyat sahələrinin intensiv inkişafının təmin edilməsi daha çox diqqət çəkir. Eyni zamanda, son 20 il ərzində bir-birinin ardınca baş verən beynəlxalq qlobal təlatümlər və ixtişaşlar, digər tərəfdən, iqtisadiyyatın müxtəlif seqmentləri üzrə silkələnmələr onu deməyə əsas verir ki, beynəlxalq səviyyədə iqtisadiyyatın şaxələndirilməsi, iqtisadi inkişaf proseslərinin təmin olunması və bununla əlaqədar strateji fəaliyyət piroritetlərinin müəyyənləşdirilərək maliyyələşdirilməsi, əsaslı kapital qoyuluşunun təmin edilməsi, məqsədli investisiyaların cəlb olunması, o cümlədən birbaşa xarici investisiyaların cəlb edilməsi məsələləri strateji əhəmiyyət kəsb edir [1]. Əlbəttə, Azərbaycan özünün neftqaz sənayesini inkişaf etdirməklə və milli iqtisadiyyatın lokomotivi olan neft sənayesinin imkanlarından bəhrələnməklə, iqtisadiyyatın müxtəlif

sahələrinin paralel olaraq inkişaf etdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və müvafiq infrastrukturun yaradılması, yüksək texnologiyaların cəlb edilməsi istiqamətində bir çox addımlar atmışdır. Lakin açığını deyək ki, bu məsələlərdə müəyyən problemlər hələ də qalmaqdadır. Kompleks tədbirlərin görülməsinə baxmayaraq, son 10 il ərzində Azərbaycan iqtisadiyyatında qlobal təsir nəticəsində milli valyutanın - manatın məzənnəsində problemlər yaranmış və məlum olduğu kimi 2014-cü illərin sonunda güclənən təzyiq 2015-ci ilin əvvəlindən başlayaraq, devalvasiya şəraiti yaratmış və Azərbaycan manatı milli valyutası həmin il ərzində ikiqat olaraq öz dəyərini itirmiş və ucuzlaşmışdır. Bu mənfi fəsadların aradan qaldırılması, makromaliyyə və makroiqtisadi sabitliyin təmin edilməsi, ilk növbədə, ölkəmizdə iqtisadi inkişafın aktual məsələlərinin ardıcıl şəkildə baxılmasını və bununla əlaqədar zəruri tədbirlərin görülməsini şərtləndirmişdir, eyni zamanda, son illərdə Covid-19 koronavirus pandemiyasının mənfi təsirindən yeni bir şərait yaranmışdır. Bu bir obyektiv reallıqdır ki, pandemiya əksər iqtisadiyyat sahələrinə ciddi şəkildə mənfi təsir göstərmişdir və bunların bərpa olunması, yəni inkişaf drayverlərinin dəyərləndirilməsi və həyata keçirilməsi üçün müəyyən vaxt tələb olunur [2]. Bu dövr ərzində iqtisadi inkişaf piroritetlərinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi, daha doğrusu bu istiqamətdə intensiv tədbirlərin görülməsi və eyni zamanda, perspektivli iqtisadiyyat sahələrinin imkanlarından səmərəli istifadə olunması məsələləri mühüm əhəmiyyət kəsb edir [3].

**Müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycanın iqtisadi inkişafı proseslərinin təhlili**

Müstəqilliyin bərpasından sonraki illərdə Azərbaycanda iqtisadi inkişaf proseslərinin təmin olunması və bununla bağlı davamlı tədbirlərin görülməsi vacib idi. Lakin 1990-cı illərin əvvəllərində ölkədə vəziyyət qeyri-sabit idi, hər tərəfdə hərcmərclik hökm sürürdü, hakimiyyət sturukturlarında hakimiyyət davası gedirdi və əsasən, hakimiyyətə idarəçilikdən başı çıxmayanlar iddialı idilər. Demək olar ki, bu kimi səbəblərdən Azərbaycanda iqtisadi islahatların aparılması və müstəqilliyə xas olan atributların reallaşdırılması düyünə düşmüşdü. Bundan əlavə, hakimiyyəti ələ keçirmək üçün vətəndaş konfliktləri və itaətsizliyi, dövlət çevrilişi baş verdi və Azərbaycanda hakimiyyətin devrilməsi nəticəsində kifayət qədər ağrılı proseslər yaşandı, hər tərəfdən xain əllər Azərbaycan torpaqlarına doğru uzandı və qısa müddət ərzində torpaqlarımızın 20% erməni işğalçıları tərəfindən qəsb edildi. Ermənilər işğal etdikləri ərazilərdə qətllər törətdi, sərvətlərimizi taladılar və Azərbaycanın iqtisadi inkişaf proseslərinə ciddi şəkildə maneələr yaratdılar. Belə bir şəraitdə Azərbaycanda iqtisadi inkişaf proseslərinin tarazlaşdırılması, iqtisadi inkişaf modelinin formalaşdırılması və inkişaf etdirilməsi üçün əsaslı zəminlər yaratmaq vacib idi və bunun üçün siyasi iradə, resurslar tələb olunurdu. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtmasından sonra - 1993-cü illərin ortalarından başlayaraq mümkün oldu. Yəni, həmin dövrdə Heydər Əliyev ölkə iqtisadiyyatının bütün zəif nöqtələrini və vacib məqamlarını dərindən bildiyindən, iqtisadi islahatlara başlamaq üçün ciddi hazırlıqlar gördü. İlk növbədə, ölkə iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinin inkişaf etdirilməsi, neft strategiyasının işlənməsi və bununla bağlı tədbirləri həyata keçirtdi. Nəticədə 1994-cü ilin sentyabr ayının 20-də “Əsrin kontrakt”ı bağlanıldı və bu kontraktın bağlanması ilə yanaşı, ölkəyə xarici investisyaların daxil olması və neft sahəsinin inkişaf etdirilməsi milli iqtisadiyyatın müəyyən mənada sabitliyinin formalaşdırılmasına səbəb oldu. Məhz həmin dövrdə neft kontraktlarının bağlanması, xarici investisyaların intensiv olaraq Azərbaycana daxil olması, mütərəqqi idarəetmə formalarının ölkəmizə gətirlməsi iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına müsbət təsir etməyə başladı. Bakıda və digər mərkəzi şəhərlərdə sosial-iqtisadi gərginliyin azaldılması, xidmət sektorunun inkişaf etdirilməsi, ayrı-ayrı iqtisadiyyat sahələrində islahatların aparılması üçün işlər görüldü. Xüsusilə, ölkə əhalisinin əhəmiyyətli hissəsinin

yaşadığı regionlarda - kənd rayonlarında, aqrar islahatların, daha konkret olaraq, torpaq islahatların aparılması nəticəsində yüz minlərlə insanların məşğulluğunun gücləndirilməsi təmin olundu və bu kimi təsirli tədbirlər nəticəsində kənd təsərrüfatının müxtəlif sahələri üzrə inkişaf prosesləri sürətləndi. Belə bir şəraitdə milli iqtisadiyyatın maddi-texniki bazasının gücləndirilməsi, iqtisadi inkişafın təmin olunması və ümumilikdə, iqtisadi inkişaf modelinin formalaşdırılması və inkişaf etdirilməsi lazım gəlirdi. Bunu dərindən anlayan Ulu Öndər Heydər Əliyev Azərbaycanda iqtisadi inkişaf proseslərinin əsasında təkcə neft-qaz sahəsinin yox, həm də qeyri-neft sahələrinin inkişafı üçün zəruri tapşırıqlar verdi. Nəticədə ölkənin qeyri - neft sənayesi sahələrinin inkişaf etdirilməsi proseslərinə başlanıldı. Ölkə əhalisinin və sənaye müəssisələrinin elektrik enerjisi ilə əsaslı şəkildə etibarlı olaraq təmin olunması və ölkədə elektrik enerjisi təhlükəsizliyinin gücləndirilməsi tədbirləri görüldü. Aparıcı iqtisadiyyat sahələri olan qeyri-neft sektoru sahələri olan kimya, neft-kimya sənaye sahəsinin inkişaf etdirilməsi üçün dövlət zəmanəti vasitəsilə Yaponiyadan yüz milyon dəyərində kredit hesabına "Buxar Generator Kompleksi"nin alınaraq, Sumqayıt sənaye mərkəzində istismara verilməsi nəticəsində ölkənin neft-kimya sənayesinə yeni nəfəs verildi. Nəticədə neft emalı proseslərinin bərpa olunması, istehsal zənciri üzrə neft-kimya müəssisələrinin istismarı təmin olundu. Bununla da qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi, məşğulluq problemlərinin həll olunması, əhalinin gəlirlərinin artırılması və sonda ölkənin qeyri-neft sektoru sahələrində rəqabət qabiliyyətli məhsul istehsalının təmin edilməsi proseslərinə başlanıldı [4]. Lakin bütün bunlar heç də iqtisadi inkişafın mövcud problemlərini həll etmək iqtidarında deyildi. Daha geniş ölçüdə və miqyasda iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi vacib idi. Bununla belə, Azərbaycanın iqtisadi inkişaf proseslərinə mane olan halların aradan qaldırılması, bürokratik baryerlərin azaldılması lazım gəlirdi. Bu sahədə qanunvericiliyin gücləndirilməsi, müvafiq qanunların qəbul olunması, institusional islahatların aparılması, sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması və cəlbediciliyinin təmin edilməsi tədbirlərini görmək lazım gəlirdi. Ölkədə demək olar ki, müxtəlif sahələrdə inhisarçı mövqelərin yumşaldılması, özəl sektorun inkişaf etdirilməsi, özəl sektor subyektlərinin daha çox investisyalar yatırmasının motivasiyalaşdırması tədbirləri tələb olunurdu. Buna görə də 1993-2003-cü illər ərzində ölkədə bir-birinin ardınca iqtisadi islahatların aparılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, müvafiq qanunvericilik aktları qüvvəyə minmiş və ölkənin icraedici sturukturlarının gücləndirilməsi, xüsusilə gömrük və vergi orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri görülmüş və ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üçün zəruri addımların atılması təmin olmuşdur [5]. Məhz bu dövrdə ölkədə milli standartlar sisteminin formalaşdırılması və beynəlxalq standartlar səviyyəsinə qaldırılması tədbirləri görülmüş, bununla bağlı zəruri işlər aparılmış, əksər mal və məhsullar üzrə standartlar işlənilmiş, milli standartlar yaradılmış, ölkənin təhsil sisteminin inkişaf etdirilməsi tədbirləri görülmüş, səhiyyə infrasturukturunun inkişafı təmin olunmuşdur. Bütün bunlar ölkədə iqtisadi inkişafın stimullaşdırılması baxımından vacib idi və son nəticədə ölkə iqtisadiyyatının şaxələndirilməsi, yeni və perspektivli iqtisadiyyat sahələrinin yaradılması, bununla bağlı əlavə tədbirlərin görülməsi üçün ciddi əsaslar formalaşdırlmışdır.

Qeyd edək ki, neftqaz sektoru ilə yanaşı, qeyri-neftqaz sektoru sahələrinin inkişaf etdirilməsi daha çox diqqət çəkmişdir [6]. Başlıca məqsəd ölkə iqtisadiyyatının diversfikasiyalaşdırılması və eyni zamanda, qlobal təsirlərə uyğun olaraq iqtisadiyyatın immunitetinin artırılması, onun müxtəlif sahələrinin inkişafı hesabına balans yaradılması ciddi şəkildə nəzərə alınmışdır. Digər tərəfdən, 1990-cı illərin ortalarından başlayaraq, ölkədə iqtisadi və maliyyə sabitliyinin gücləndirilməsi tədbirləri görülmüşdür. İstehsal olunan neftin və sonraki illərdə təbii qazın Avropa bazarlarına çıxarılması üçün beynəlxalq səviyyəli

nəqliyyat layihələrin hazırlanması və reallaşdırılması mümkün olmuşdur. Məhz bunların nəticəsində Bakı-Tbilisi-Ceyhan kimi geniş imkanlar açan və Azərbaycan neftini dünya bazarlarına çıxan beynəlxalq boru kəməri lahiyəsi reallaşdırılmışdır. Bunun sayəsində Azərbaycan nefti etibarlı şəkildə Türkiyəyə və oradan dünya bazarlarına ixrac olunmuş və sonraki dövrlərdə təbii qaz boru kəməri də bu istiqamətdə fəaliyyət göstərmişdir. Beləliklə, Azərbaycan özünün iqtisadi inkişf dinamikliyinə nail olmuş, regionda özünün iqtisadi nüfuzunu və gücünü artırmış, iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevrilmək üçün ardıcıl tədbirlər görmüşdür. Bundan əlavə, Azərbaycanda iqtisadi islahatların sürətləndirilməsi üçün maliyyə mənbələrinin formalaşdırılması və vergi daxilolma bazalarının gücləndirilməsi imkanları yaranmışdır. 2003-cü ilin sonlarına yaxın artıq Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələri üzrə iqtisadi inkişaf proseslərinin dinamikliyi üçün əsaslı zəminlər yaradılmış və bu istiqamətdəki perspektivlərindən istifadə olunmasına başlanılmışdır.

**Yeni çağırışlar şəraitində Azərbaycanın iqtisadi inkişaf prioritetləri və perspektivləri**

Əvvəldə qeyd etdiyimiz kimi, 2003-cü ilin sonlarından başlayaraq Azərbaycanda iqtisadi inkişaf proseslərində yeni çağırışlar və yeni mərhələlər diqqət çəkmişdir. Belə ki, sosial-iqtisadi inkişafın sabitləşdirilməsi, ölkə regionlarının inkişafının sürətləndirilməsi, mövcud resurslardan səmərəli istifadə olunması, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi və gəlirlərinin artırılması üçün əlavə tədbirlərin görülməsi zərurəti yaranmışdır. Bütün bunlar dövlətin iqtisadi və regional siyasətində daha çox olaraq özünü biruzə vermişdir [7]. Regional sosial-iqtisadi inkişaf baxımından və yeni çağırışlara uyğun olaraq, ölkənin iqtisadi inkişaf piroritetlərinin müəyyənləşdirilməsi üçün regionların inkişafının sürətləndirilməsi, burada mövcud problemlərin həll edilməsi lazım gəlmişdir. Bunun üçün 2004-2008-ci illərdə ölkəmizdə regionların sosial-iqtisadi inkişafına həsr olunmuş birinci dövlət proqramı hazırlanmış və həyata keçirilmişdir. Bu proqramın başlıca məqsədi ölkədə sosial-iqtisadi inkişafın maddi-texniki bazasının gücləndirilməsi və ilk növbədə, istehsal infrastrukturunun yaradılması ilə bağlı olmuşdur. İkinci bir məsələ bir-birinin ardınca həyata keçirilən dövlət proqramlarının səmərəliliyi ilə bağlıdır. Məhz regional inkişaf dövlət proqramları çərçivəsində regionların siması tamamilə dəyişmiş, yol infrasturukturu, körpülər və digər infrasturuktur obyektləri istismara verilmiş, elektrik enerjisi, təbii qaz, su ilə təminat məsələləri yaxşılaşdırılmış, səhiyyə və təhsil infrasturukturunun gücləndirilməsi tədbirləri görülmüşdür. Minlərlə yeni məktəblər və xəstəxanalar tikilmişdir. Bütün bunlar yeni çağırışlar şəraitində ölkənin iqtisadi inkişaf piroritetlərinin daha yüksək səviyyəyə qaldırılması və onun inkişafından ötrü zəruri tədbirlərin görülməsi üçün ciddi əsaslar yaratmışdır. Digər tərəfdən, ölkə Prezidentinin birbaşa olaraq problemli məsələləri nəzarətə götürməsi, ardıcıl olaraq ölkə regionlarına səfərlər etməsi, mövcud problemlərlə yerində tanış olması və müvafiq tapşırıqlar verməsi amilini nəzərə alsaq, həmin dövrdən başlayaraq Azərbaycanda çoxlu sayda iqtisadi inkişaf subyektlərinin daha səmərəli fəaliyyət göstərməsi üçün müvafiq şərait yaranmış, investisya cəlbediciliyi yüksəldilmiş və bürokratiya halları əsasən aradan qaldırılmışdır.

2004 - 2008-ci illəri əhatə edən ikinci dövlət proqramı çərçivəsində regionlarda istehsal və sənaye infrasturukturunun yaradılması prosesləri sürətlənmişdir. 2009-2013-cü illəri əhatə edən üçüncü dövlət proqramında isə rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması, regionlarda olan resurslardan daha səmərəli istifadə edilməsi, xüsusilə bitkiçiliyin və heyvandarlığın intensiv inkişafı üçün tədbirlərin görülməsində əsaslı irəliləyiş baş vermişdir. Bütün bunların sayəsində Azərbaycanda sosial-iqtisadi inkişaf prosesləri xeyli intensivləşmişdir, lakin, 2010-cu ildən etibarən 2008-ci illərin sonlarında baş verən dünya maliyyə böhranının mənfi nəticəsində bu proseslər nisbətən zəifləmişdir. Yəni, artıq Azərbaycanda neft ixracından əldə olunan valyuta vəsaitlərinin həcminin əvvəlki səviyyədə

saxlanılmasında müəyyən problemlər yaranmışdır. Buna görə də Azərbaycan hökuməti həmin dövrdə ölkə iqtisadiyyatının sturukturunun yenilənməsi və mövcud istehsal sahələrinə strateji şəkildə baxılması tədbirlərinə başlamışdır. Belə ki, son onilliklərdə Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi üzrə prioritet vəzifələrdən biri milli iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılması və perspektivli iqtisadiyyat sahələrinin inkişafının təmin olunmasıdır [8]. 2015-ci ildə dünya səviyyəsində enerjidaşıyıcıların qiymətlərinin dəyişməsi və bununla əlaqədar olaraq, neftin qiymətlərinin aşağı düşməsi nəticəsində, əvvəldə qeyd etdiyimiz kimi Azərbaycanın milli valyutasına təzyiqlər artmışdır. Buna görə də daha təsirli tədbirlərin görülməsi, neftqaz sektoru ilə yanaşı, digər iqtisadiyyat sahələrinin potensialından səmərəli istifadə olunması lazım gəlmişdir. Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə iqtisadiyyatın müxtəlif perspektivli istiqamətləri üzrə strateji yol xəritələri təsdiq edilmişdir [9]. Məhz bu strateji sənədlərin reallaşdırılması hesabına son illərdə milli iqtisadiyyatın strukturu genişləndirilmiş, qeyri-neft sektoruna məxsus rəqabətqabiliyyətli məhsul istehsalının həcmi artırılmış və ixrac potensialı gücləndirilmişdir. Bunlarla bərabər, sahibkarlığın inkişaf etdirilməsi, xüsusilə innovativ sahibkarlığın genişləndirilməsi məqsədilə əlavə tədbirlərin görülməsi, idarəetmə mexanizmlərinin yenilənməsi, institutisonal islahatların aparılması prosesləri sürətlənməkdədir. Sahibkarlıq subyektlərinin daha səmərəli fəaliyyət göstərmələri üçün kənar müdaxilələr minimuma endirilmiş, vergi nəzarətindən başqa digər yoxlamalar dayandırılmışdır [10].

Qeyd edək ki, iqtisadi inkişafın prioritet vəzifələrinin yerinə yetirilməsi prosesləri Covid-19 koronavirus pandemiyası ilə bağlı xeyli zəifləmişdir. Pandemiya dövründə xidmət sektoru sahələri, ilk növbədə, son illərdə dinamik inkişaf edən turizm sektoru iflic vəziyyətinə düşmüşdür. Dövlət tərəfindən müxtəlif iqtisadiyyat sahələrinin dəstəklənməsi tədbirlərinə baxmayaraq, bu sahələrin fəaliyyətinin bərpa olunması və postpandemiya dövrünün inkişaf prioritetlərinə uyğun şəkildə təminedilməsi tədbirlərinin səmərəli təşkilinə ehtiyac vardır. Postpandemiya dövründə son illərdə baş vermiş geriliyin aradan qaldırılması və iqtisadi inkişaf proseslərinin dinamikliyinin təmin olunması vacibdir. Başqa bir önəmli məsələ - qlobal transformasiyalar və yeni çağırışlar kontekstində Azərbaycanda iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi və işğaldan azad olunmuş ərazilərin potensialı nəzərə alınmaqla, daha çox işlərin görülməsi, bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasının təmin edilməsi, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, sosial və istehsal infrastrukturunun yaradılmasından ibarətdir. Artıq Şuşa şəhərində yüzlərlə abidələrin, tarixi binaların və digər mühüm əhəmiyyət kəsb edən ərazilərin bərpası və yenidən qurulması prosesləri sürətlənməkdədir. Məcburi köçüknlərin Şuşa şəhərinə qayıtması üçün yaşayış massivləri tikilməkdədir. Təhsil və səhiyyə sahələrinin maddi-texniki bazasının yaradılması tədbirləri görülür və iri "Şuşa müalicə-rekreasiya sanatoriyası"nın tikintisinə başlanılmışdır. Ölkənin 4-cü iri şəhəri olacaq Ağdamın baş planı təsdiq olunmuş və sosial-istehsal infrastruktur obyektləri şəbəkəsinin yaradılmasına start verilmişdir. Ağdam sənaye parkında ilk rezidentlər qeydə alınmışdır. Regionun digər iri böyük şəhəri olacaq Füzuli şəhərinin quruculuğuna başlanılmışdır, belə ki, Dövlətyarlı kəndində min ailənin yaşayacağı "ağıllı kənd" layihəsi reallaşdırılmaqdadır [11]. Qarabağın hava qapısı olan – Füzuli Beynəlxalq Hava Limanı istismara verilmişdir. Ümumilikdə isə işğaldan azad edilmiş ərazilərdə 3 Beynəlxalq Hava Limanı fəaliyyət göstərəcəkdir. Şərqi Zəngəzurda – Zəngilan rayonundakı Beynəlxalq Hava Limanında da ilk uçuşlar həyata keçirilmişdir. Bir sözlə, işğaldan azad olunmuş ərazilərdə ümumilikdə dirçəliş prosesləri tədricən intensivləşməkdədir və bütün bunlar ölkəmizin iqtisadi inkişafının sürətləndirilməsinə əlavə imkanlar verəcəkdir.

Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi və onun müasir dövrdə qarşısında duran piroritetlərin ardıcıl şəkildə baxılması olduqca mühüm əhəmiyyət kəsb edir. Bu məsələlər bir

çox mürəkkəb vəzifələrin yerinə yetirilməsini şərtləndirir [12]. Son illərdə iqtisadiyyatın sturukturunun genişləndirilməsi, regional idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi iqtisadi inkişafın sürətləndirilməsinə təkan verən hallar kimi qiymətləndirilməlidir. Xüsusilə, iqtisadi rayonlaşdırmanın yenidən formalaşdırılması və bu rayonların sayının 14-ə çatdırılması, işğaldan azad olunmuş ərazilərdə 2 yeni iqtisadi rayonun yaradılması ölkə iqtisadiyyatının strukturunun genişləndirilməsinə, islahatların dərinləşdirilməsinə və iqtisadi inkişafa imkan verən əlavə resursların formalaşdırılmasına, potensialın artmasına imkan verəcəkdir. Xüsusilə qeyd edək ki, 2030-cu ilədək nəzərdə tutulan Milli Piroritetlərin reallaşdırılması baxımından ölkə iqtisadiyyatı strukturunun şaxələndirilməsi, yüksək texnologiyalar əsaslı və ağıllı texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi, "Yaşıl iqtisadiyyat" prinsiplərinin gücləndirilməsi və alternativ enerji mənbələri şəbəkəsinin və istehsal infrastrukturunun yaradılması məsələləri ölkə iqtisadiyyatının daha rasional amillər üzərində inkişaf etdirilməsinə imkan verə bilər [13]. Eyni zamanda, Azərbaycan iqtisadiyyatı dünyada baş verən qlobal proseslərə və təyziqlərə immunitetlik nümayiş etdirmək səviyyəsinə qaldırılmalıdır [14]. Biz əvvəldə də qeyd etmişdik, son onilliklərdə bununla bağlı bir çox məsələlər narahatçılıq doğurmuşdur, məsələn ölkə iqtisadiyyatı neft və qazdan, o cümlədən, ixracın sturukturu neft və qaz amilindən kifayət qədər asılıdır. Belə ki, digər qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi, xüsusilə ixracyönlü sahələrin potensialının reallaşdırılması, əlavə iş yerlərinin yaradılmasında bu sahələrin imkanlarından səmərəli istifadə edilməsi, yüksək texnologiyalar transferinin təmin olunması və s. bu kimi məsələlər ölkə iqtisadiyyatının inkişafının sürətləndirilməsi baxımından vacib hesab edilir.

**Nəticə**

Yaxın perspektivdə Azərbaycanın iqtisadi inkişafının intensivləşdirilməsi üçün bir sıra tədbirlərin daha geniş şəkildə reallaşdırılmasına zərurət qalmaqdadır: birinci növbədə ölkənin iqtisadi inkişaf modelinin müasir prioritetləri yenidən baxılmalı və qlobal transformasiyalara uyğun şəkildə müəyyənləşdirilməlidir; sonra, yeni çağırışlar əsas götürülməklə ölkənin iqtisadi inkişafının sürətləndirilməsinə imkan verən fəaliyyət mexanizmlərinin işlənilməsi və alətlərinin tətbiq edilməsi məsələlərinə ciddi önəm verilməlidir; qeyri-neftqaz sektoru sahələrinin potensialından və resurslarından səmərəli və məhsuldar istifadə olunması istiqamətində ardıcıl işlər görülməli və məqsədli dövlət proqramları həyata keçirilməlidir və s.

**Ədəbiyyat**

1. Abışlı, L.V. Azərbaycan Respublikasının iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və onun makroiqtisadi səmərəliliyi problemləri/ İ.e.f.d. dis-nın avt-tı/ – Bakı, 2010. – 146 s.
2. Мухамедиев, Б., Ильясова, Ж. Методы оценки конкурентоспособности национальной экономики. Вестник КазНУ. Серия - Экономическая, 2018. с. 203-211.
3. Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. – Bakı: – 2011. –189 s.
4. Əliyev, R.Ç. Elmtutumlu sənaye istehsalinin rəqabət qabiliyyətinin yüksəldilməsi. İ.e.f.d. dissertasiyasının avt-tı. Bakı, 2018. – 26 s.
5. Əliyev, Ş.T. Müasir dövrdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin gücləndirilməsi səmtləri və hədəfləri // Bakı Biznes Universiteti. Audit. Bakı. 2018, № 01, s .117-132
6. Abbasov, İ.M., Əliyev, T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, 2018, 267 s.
7. Əhmədov, M.A. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları/ M.A Əhmədov, A.C.Hüseyn. – Bakı: "İqtisad Universiteti", – 2011, – 120 s.
8. Aliyev, Sh.T. Strategic aspects of diversification and export potential increase of the non-oil industry in Azerbaijan // 55th International Scientific Conference on Economic and Social Development. Varazdin Development and Entrepreneurship Agency and University North in cooperation with UNEC, Faculty of Management University of Warsaw Faculty of Law,

Economics and Social Sciences Sale - Mohammed V University in Rabat Polytechnic of Medimurje in Cakovec, 18-19 June 2020, Vol.4., p.30-39.
9. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
10. Abbaszadə, M.T. İqtisadi artım və innovativ metodlardan istifadə yolları İqtisadiyyat və idarəetmə // Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. Cild 22, № 4 (2020), – s. 80-85
11. Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı/ Bakı şəhəri, 19 aprel 2021-ci il.
12. Алиев, Ш.Т. Актуальные проблемы и перспективы экономики Азербайджана на рубеже XXI века // Журнал «Финансовая экономика». Москва. 2021, № 09, с. 71-76.
13. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir: [Elektron resurs] / URL: https://president.az/articles/50474.
14. Ələsgərov, A.K., Muradov A.N. Qloballaşma mühitində milli iqtisadi inkişaf modelinin: formalaşması və inkişafı problemləri. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. – Bakı: – 2010. – 258 s.

***Лачын Везир оглу Абышлы***
***доцент кафедры «Экономика»***
***Бакинского Государственного Университета,***
***Икрам Исмаил оглу Джабраилов***
***доцент кафедры «Финансы и менеджмент»***
***Бакинского Государственного Университета,***

## ***Актуальные вопросы экономического развития Азербайджана в современном периоде***

***Резюме***

*Целью исследования является рассмотрение актуальных вопросов экономического развития Азербайджана в современном периоде с учётом новых вызовов. Раскрыта сущность действующих проблем, замедляющих экономическое развитие Азербайджана, и даны приоритетные направления в этой сфере. С учётом современных вызовов отмечена и обоснована важность ускорения проведения действенных мероприятий, которые могли бы обеспечить глубокое экономическое развитие страны. Кроме того, обобщены актуальные направления экономического развития Азербайджана в ближайшей перспективе. Методология исследования состоит из разных научных доводов и мыслей различных исследователей, которые рассматривали проблемы экономического развития страны в современном периоде. Кроме того, использованы общеизвестные экономические методы, в том числе, метод анализа, синтеза и обобщения. Практическая значимость исследования отражена в материалах, которые могли бы выступить в качестве новых экономических драйверов в нынешнем периоде. Считаем, что материалы исследования могут быть полезны в разработке и реализации эффективных механизмов и инструментов в ускорении экономического развития Азербайджана. Результаты исследования отражены в научных доводах и обоснованиях, которые могут быть эффективно использованы в подготовке целевых программ и стратегий для ускорения экономического развития страны. Оригинальность и научная новизна исследования объясняется теми обстоятельствами, которые обобщены в актуальных вопросах и подходах ускорения экономического развития Азербайджана в соответствии с новыми вызовами. Одно из главных положений научной новизны статьи - обоснование обеспечения комплексного научно-экономического подхода в решении актуальных проблем экономического развития страны с учётом новых экономических драйверов и реалий. Подготовлена группа рекомендаций и даны предложения по актуальным вопросам экономического развития Азербайджана в нынешних условиях.*

***Ключевые слова:*** *Азербайджан, экономическое развитие, экономический рост, модель экономического развития, проблемы экономического развития, перспективы экономического развития.*

***Lachyn Vezir Abyshly***
***Associate Professor of the Department of Economics***
***Baku State University***
***Ikram Ismail Dzhabrailov***
***Associate Professor of Finance and Management***
***Baku State University***

***Current issues of economic development of Azerbaijan in the modern period***

***Summary***

*The purpose of the study is to consider main issues taking into account new challenges of the economic development of Azerbaijan in the modern period. The essence of the existing problems slowing down the economic development of Azerbaijan is investigated and priority directions in this area are given. Taking into account modern challenges, the importance of accelerating the implementation of effective measures that could ensure the deep economic development of the country is considered. In addition, the current directions of the economic development of Azerbaijan in the near future are summarized. The research methodology consists of different scientific arguments and thoughts of various researchers who considered the problems of the country's economic development in the modern period. In addition, well-known economic methods are used, including the method of analysis, synthesis and generalization. The practical significance of the study is reflected in materials that could act as new economic drivers in the current period. Research materials can be useful in the implementation of effective mechanisms and tools in accelerating the economic development of Azerbaijan. The results of the study are reflected in scientific arguments that can be effectively used in the preparation of targeted programs and strategies to accelerate the country's economic development. The originality and scientific novelty of the research is explained by the circumstances that are summarized in relevant issues and approaches to accelerating the economic development of Azerbaijan in accordance with new challenges. One of the main provisions of the scientific novelty of the article is the justification for ensuring an integrated scientific and economic approach in solving the current problems of the country's economic development, taking into account new economic drivers and realities. A group of recommendations on main issues of economic development of Azerbaijan are given in the current conditions.*

***Key words:*** *Azerbaijan, economic development, economic growth, economic development model, economic development problems, economic development perspectives.*

***Elmi redaktor: i.e.d. dos. Y.Məmmədov***
***Daxil olub: 05.12.2022.***
***Çapa qəbul olunub: 12.12.2022.***